# “Bayraktar Teknoloji Azərbaycan”ın rəhbər heyəti BMU-da







**"Bayraktar Teknoloji Azərbaycan" MMC-nin direktoru Hüseyn Topuzun rəhbərlik etdiyi nümayəndə heyəti Bakı Mühəndislik Universitetində (BMU) olub.**

Bu barədə ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə rektor Yaqub Piriyev qonaqları BMU-da görməkdən məmnun olduğunu bildirib, "Bayraktar Teknoloji Azərbaycan" ilə ali məktəb arasında təməli qoyulan əməkdaşlığın müsbət nəticələrinə inamını ifadə edib.

Rəhbəri olduğu qurumun fəaliyyətinə dair təqdimatla çıxış edən Hüseyn Topuz "Bayraktar Teknoloji Azərbaycan"ın həyata keçirdiyi layihələri və qarşıdakı hədəfləri barədə geniş məlumat verib. Bildirib ki, şirkətin fəaliyyətinin əsas prioriteti ən qabaqcıl texnoloji sistemlərin inkişaf etdirilməsidir. O, universitet tələbələrinin şirkətdə geniş təcrübə imkanlarına toxunub, habelə BMU-nun elektrik və elektronika, mexanika, kompüter mühəndisliyi, o cümlədən informasiya texnologiyaları sahələrində tədris, tədqiqat potensialını yüksək qiymətləndirərək ali məktəbin tələbələrinin MMC-də təcrübə proqramlarında iştirakına maraqlı olduqlarını deyib.




Rektor Yaqub Piriyev nəzəri biliklərin hər zaman bütün sahələrdə təcrübə ilə möhkəmlənməsinin əhəmiyyətli olduğunu qeyd edib və bunun üçün universitetdə yaradılan Texnoparkın fəaliyyətini, burada tələbələr tərəfindən maraqlı startap layihələrinin hazırlandığını diqqətə çatdırıb. BMU tələbələrinə nüfuzlu bir şirkətdə təcrübə üçün yaradılacaq şəraitə görə Hüseyn Topuza minnətdarlığını bildirən Yaqub Piriyev müəssisələrdə başlayan təcrübənin sonradan iş imkanına qapı açdığını deyərək bu mənada təcrübə təklifini müsbət qiymətləndirib.

Nümayəndə heyəti universitetin Kibertəhlükəsizlik və digər laboratoriyaları ilə tanış olub, həmçinin Texnoparka baş çəkib. Burada qonaqlar BMU tələbələrinin layihələri, hazırladıqları Pilotsuz Uçuş Aparatları və onların gələcək planları ilə yaxından maraqlanıblar.

**M.MUSTAFA,**
**"Respublika".**